**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

**№ 64 (1432) 6 aprel - 7 aprel 2017-ci il**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

# Xarı bülbül və Vətən həsrətli Ağabəyim ağa...

**(əvvəli ötən sayımızda)**

- Qayıdır ki, yaxşı, bəs sənin daş-qaşlarının satdığını bilsələr, mənə nə deyərlər? Məni xalq içində rusvay etmək istəyirsən?

- Arxayın olun, şahım! Siz məndən naxələflik görməmisiniz, ölənəcən də görməyəcəksiniz. Bu sirri yerdə ikimiz, göydə isə Allah-təala biləcəkdir.

- Lakin Fətəli şah yenə razı olmaq istəmir:

- Axı pul sənin nəyinə gərəkdir? Nəyin çatmır? Sənə nə lazımdırsa, nə qədər pul istəyirsənsə, mən verə bilərəm. Bütün xəzinəm həmişə sənin üzünə açıqdır!

Ağabəyim ağa bu sözlərdən şahın yumşaldığını duyur, tez cavab verir:

- Elədir şahım! Siz sabahdan bütün saraya elan edərsiniz ki, xəzinəni mənim üzümə açırsınız. Mən isə xəzinə əvəzinə daş-qaşlarımı, cehizlərimi xərcləyərəm, buna özüm üçün bir bağ salmaq istəyirəm. Elə bir bağ ki, orda ancaq mən gəzəm. Bu bağ ancaq mənə məxsus olsun, bu bağda hər çiçək, hər kol ancaq mənim zövqümlə əkilsin, buyurun ki, heç kəs mənim işimə qarışmasın.

Fətəli şah razılığını bildirir, səhəri gün elan edir ki, şah xəzinəsini Ağabəyim ağanın üzünə açıbdır. Dünyanın hər yerindən ən bacarıqlı bağbanlar saraya dəvət olunurlar. Ağabəyim ağa öz fikirini bağbanlara bildirir: "Elə bir bağ salacaqsınız ki, Şuşada bitən hər bir ot, ağac, gül burada bitsin. İş başlanır, Şuşanın dağından - dərəsindən, karvan-karvan torpaq daşınır. Şuşada bitən hər bir ot-ələf, gül-çiçək, kol, ağac bu bağda da əkilir, diqqətlə becərilir. Nəhayət, bağ hazır olur, şairənin arzusuna əməl edərək bağın adını "Vətən bağı" qoyurlar. Hər şey hazır olduqdan sonra Ağabəyim ağa bağı gəzməyə çıxır, bağ, doğrudan da gözəl idi. Məharətli bağban əlləri gülçiçəklə bərabər, sanki Şuşanın dağdərəsinin havasını da, ətrini də bura gətirə bilmişdilər.

Şairə bağı gəzib-dolanır, buradakı hər şey onun zövgünü oxşayırdı. Lakin nə qədər axtarırsa bağda xarı-bülbül gülü tapa bilmir. Yenidən bağda işləmiş bütün bağbanlar arxaya çağırtdırılar. Ağabəyim ağa məsələni bağbanlara bildirir. Bağbanlar yenidən ikiqat səylə işə başlamalı olurlar. Lakin nə qədər edirlərsə, xarı-bülbül gülü "Vətən bağı"nda bitmir ki, bitmir. Bağbanların illərlə çəkdikləri zəhmət hədər gedir...

Xarı bül-bül Şuşadan Tehrana "Vətən bağ"ına köçmür ki, köçmür...

Bəs qərib bir şairənin Vətən həsrətini azaltmaq istəyən xarı-bülbül necə gül idi?

**"Vətən bağı" əl-əlvandır,**
**Yox üstündə xarı-bülbül.**
**Nədən hər yerin əlvandır,**
**Köksün altı, sarı bülbül.**

Müəllif demək istəyir ki, qəfəsdə uzun müddət oturduğu üçün gülə qovuşmaq üçünhəsrət çəkərək ürəyinin istirablarını, dərdini bədənindən xaricə biruzə verərək köksünü altı yanıb, saralıb sarı rəngə boyamışdır. Bu hadisələri özünə şamil edərək, yəni Şah sarayında Vətən həsrəti ilə ürəyinin alışıb- yanmasına bənzətmişdir. Xarıbülbül güldən daha çox bir möcüzəyə bənzəyirdi, bu gülü ancaq görmək onun haqqında tam təsəvvür yarada bilər. Onun heç bir ətri də yoxdur. Xırda bənövşəyi rəngli ləçəkləri, otların bu rəngli başqa gül-çiçəklərin içərisində çox çətinliklə seçilir. Gülün üç ləçəyi olur, simmetrik quruluşuna görə aydınca görmək olur ki, gülün dörd ləçəyi olmalı imiş.

Bu dördüncü ləçəyin yerində isə arıya bənzəyən, üstündə cücülərdə, böcəklərdə olduğu kimi naxışları, məxmər kimi nazik tükcüklərlə örtülü bir böcək (xar) var.



Belə bir təsəvvür yaranır ki, böcək gülün dördüncü ləçəyini yeyib. İndi isə başını gülün ortasına soxub, çünki böcəyin başı da görünmür. Gülün düz ortasında isə bir bül-bül oturubdur. Bülbülün çiynində iki balaca ləcək vardı., gülün öz ləçəklərinin rəngindən bir azca tündü. Ləçəklərdən təxminən on-on beş dəfə balaca. Aydınca görünür ki, bu ləçəklər bülbülün qanadlarıdır.

Bül-bülün dimdiyidə, gözləridə, başı, boynu bədəni də aydınca görünür. Hətta gülü əlinə alanda belə inanmırsan ki, bül-bül də, gülün bir ləçəyinin yerində bitmiş arıya bənzər bir böcək də canlı deyil, ancaq bitkidir.

Xarı-bülbül haqqındakı rəvayətdə deyilir:

Bir zamanlar bütün bitkilər canlı imiş, onlar da insanlar kimi danışırmışlar, sevə bilirmişlər. Sevinib gülə bilirmişlər. Bülbül o zamanlar gülü sevir, bütün gül-çiçəklər də bu məhəbbəti alqışlayır. Hər gün sübh tezdən bülbül gülün üstünə qonub ona məhəbbət mahnısı oxuyarmış, gül-çiçəklər də bu nəğmənin təranələri altında rəqs edərdi, şənlənərmiş.

Amma xar belə bir şadyanaqlığa, sevgiyə, məhəbbətə dözə bilmir, qısqanır, onun paxıllıqdan az qala bağrı çatlasın, hamının sevinci onun qəzəbi imiş. Nəhayət, xar bu sevincə son qoymaq istəyir, gülü bülbüldən ayırmaq üçün gəlib ona öz ürəyini açır, sevgisini bildirir. Gül xarı (tikanı) ilə rədd etməyə çalışır. Acıqlanan xar gülün saplağı ilə yuxarı dırmaşır, onun bir ləçəyini yeyir. Bülbül gülün məhv olduğunu görüb fəryad qoparır. Bütün gül-çiçəklər də bu fəryada qoşulurlar. Lakin fəryad heç zaman daşqəlblilərə təsir etməyib, xarın daş qəlbi yenə yumşalmır, yenə gülü yeməkdə davam edir, onda hamı Allah-təalaya yalvarır ki, onların canını alsın, amma gülə bülbülün eşqinə, məhəbbətinə qıymasın. Onların ah-naləsi qəbul edilir. Hamı bitkiyə çevrilir. Gül, bülbül, xarda üçlükdə bir gülə çevrilirlər. Hər il də elə beləcə üçü də birlikdə bitirlər. Gül-çiçəyin bu fədakarlığı, öz həyatlarının güllə bülbülün eşqinə, məhəbbətinə qurban verməsi bülbülü riqqətə gətirir. O indi də hər səhər tezdən bitkiyə çevrilmiş gül-çiçəklərin yanına gəlir. Amma daha mahnı oxumur, ah-nalə edir. Daha heç zaman güllərin üstünə qonmur, çünki ilk məhəbbətini unutmayıbdır...

Xar isə xəcalətindən başını gülün ləçəkləri arasında gizlədib, həmişəlik dünya işığına, gözəlliyə həsrət qalıbdır...

Bəs bül-bül niyə məhz bu gülü seçmişdir, onun üzərinə qonmuşdur? Çünki həmin gül özünə ancaq bülbülü seçmişdir. Başqa gül-çiçəklərin xahəni çox olur: yarpaqları, iyləri, tikanları...

Bü güldə isə nə yarpaq var idi, nə iy, nə də tikan. Onun bircə sevgilisi var idi: bülbül! Bülbülün eşqi, məhəbbətinin hər an onu xilas edəcəyinə əmin idi gül.

O zamanki, gül-çiçəklər fədakarlıq edib canlarını bülbüllə gülün eşqi, məhəbbətinə qurban vermişdilər, xarıbülbül də söz vermişdir ki, bu fədakarlığa cavab olaraq ancaq onlar bitkiyə çevrildikləri yerdə də bitəcək, ayrı heç yana getməyəcəkdir. Belə də olur. Xarı-bülbüllə bitkiyə çevrildiyi Şuşa torpağından başqa, dünyanın heç bir yerində rast gəlmək mümkün deyildir. Hətta ən məharətli bağbanlar da əlləri ilə belə bu gülü başqa torpaqda yetişdirə bilmirlər.

Hətta böyük bir insanın, vətəndaş şairə xanımın Ağabəyim ağanın Vətən həsrəti-qəriblik həyatı da, heç olmasa bu həsrətini azaltmaq naminə də bitmir ki, bitmir...

**O 1832-ci ilədək ömrünün sonuna kimi Vətən həsrəti çəkə-çəkə Tehranda yaşamışdır və Darül-İman adlanan Qum şəhərində dəfn olunur.**



***Nemət Bəxtiyar***
***AJB-nin üzvü***
***Media "Qızıl Qələm" mükafatı laureatı***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASIYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ